# ÇAYDA BALIQ YAN GEDƏR



*Akif İMANLI*

**(Hekayə)**

Əksəriyyəti qız-gəlinlərdən ibarət olan işçilərdən bir neçəsi kişi qismi idi və bu başıpapaqlılardan da Babaş Daşdəmirli yemək-içməyə həddindən artıq meyil-li-li-yi, bir növ, kefcilliyi ilə digərlərindən seçilirdi. Həftənin sonu, daha dəqiqi, beşinci gün, iş vaxtının təxminən sonlarında iki qadının pıçıltı ilə söhbət etməsi nəzərə alınmasa, otaqda hökm sürən dərin sükutu Babaş Daşdəmirlinin kal səsi pozdu:

- Nə deyirsən, Kamil müəllim, "Quzu qabırğası" restoranında yorğun-lu-ğu-muzu çıxarağınmı?

İş yoldaşlarının hörmət əlaməti olaraq adına müəllim sözü əlavə etdikləri bu abırlı adam Kamil Səfərli idi.

Kamil müəllim adətinə uyğun bığına bir yüngülvari sığal çəkib cavab

*Hekayənin adını dəqiqləşdirən dostum, professor Cavanşir Yusifliyə təşəkkür edirəm.*

**Müəllif.**

verincə, o başda oturub daz başını qaşıyan Babaş qız-gəlinlərin kabab təsəvvürlərinin yarana biləcəyinin fərqinə varmadan bir daha səsini qaldırdı:

- Fikirləşirəm ki, quzu əti ağır olar, balıq kababı daha yaxşıdır, - deyib, başladı balıq kababından ağızdolusu danışmağa. O danışdıqca hamının ağzında sanki balıq kababının tamı yarandı və nə vaxt balıq kababı yediklərini xatırlamağa çalışdılar. Hətta evinə getməyə o qədər də tələsməyən qadınlardan biri "Barı qeyrəti çata, bizləri də dəvət edə" - deyə fikrindən keçirtdi.

Babaşın təklifinə çoxdandır balıq kababı yeməyən Kamil müəllim başını endirib-qaldırmaqla razılıq cavabı vermiş oldu. Əhəd Əhmədli isə Kamil müəllimə göz vurmaqla Babaşın hesabına möhkəmcə yeyib-içəcəklərinə işarə etdi.

(İndiyə baxmayın, keçmişdə nağıl dili yüyrək olardı. Kaş nəsr (hekayə) dili də elə iti, həcmi də biz deyən olaydı...)

Xülasə, "dostlar" iş gününü başa vurar-vurmaz özlərini "Könlü balıq istəyən" restoranına yetirdilər. Orda yer olmadı. Keçdilər "Çay balığı" restoranına. Babaş Daşdəmirli heç kimin fikrini vecinə almadan xidmətçinin gətirdiyi soyuq yeməklərin "hamısı qalsın" hökmünü verdi və əlavə etdi: - Yemək-içməyin şahını gətir, arağı deyirəm, tez ol!

Babaş dil boğaza qoymadan sifarişlərini verir, süfrəni öz iştahına uyğun düzəltdirirdi.

Əvvəlcə, soyuq yeməklərdən başladılar. Babaş əl atıb süfrəyə qoyulmuş "Svabodnaya" arağını götürdü, xidmətçini gözləmədən ağzını açdı, qədəhlərə süzüb, özününkünü qaldırdı, əvvəlcə "getdik" dedi, ani dayandı, öz ağlına uyğun fəlsəfi fikir irəli sürdü "bu gedən yerə dərd, bəla getməsin". Qədəhdəki arağı russayağı ağzına boşaldıb, bir qurtuma içdi. Kamil müəllimlə Əhəd müəllim isə qədəhləri toxundurub kiçik qurtumlarla kifayətləndilər. bu hesabla Babaş Daşdəmirli heç kimə macal verməndən, görməmiş adam kimi doyunca yedi, yarımlitirlik arağı, demək olar ki, təkbaşına içdi. Mal böyürtüsünə oxşar bir səslə gəyirib "oxxay" deyərək gərnəşdi və ayağa qalxmağa çalışdı, alınmadı, səntirləyib stula çökdü. Gözləri süzüldü, elə bil ki, ağzı da əyildi. Buna baxmayaraq "taksi çağırın" deyə bildi. Abırlarına qısılan yoldaşlarından biri, deyəsən, Əhəd Əhmədli "Bolt" sifariş verdi. On dəqiqə keçməmiş Qaçaq Nəbinin Boz atı rəngdə taksi hazır oldu. Hərəsi Babaşın bir qolundan tutan yoldaşları onu, bir növ, sürüyüb taksinin qabaq oturacağında əyləşdirdilər. Özləri də oturmaq istəyəndə restoran xidmətçisinin səsi eşidildi.

– Bəs hesabı kim verəcək?

Kamil müəllim xidmətçinin əlində tutduğu hesab kağızını alıb, məbləğə gözucu nəzər yetirdi, çiynini çəkib Əhəd Əhmədliyə göstərdi. Əhəd Əhmədli də qaşlarını çatmaqla demək istədi ki, onsuz da bunlarda insaf, vicdan deyilən anlayış yoxdur, ilişmişik, hesabı ödəməliyik.

İkisi də ciblərini eşələyib, nələri vardısa qəpiyinə qədər çıxartdılar, güc-bəla birtəhər hesabı düzəldib verdilər. Gəlib taksiyə əyləşdilər. Babaşın qoltuq cibindəki telefondan əcaib-qəraib zəng gəldi. Bu sürəkli zəngə hövsələsi çatmayan Kamil müəllim əyilib onun cibindən telefonu götürüb baxdı. Ekranda telefon nömrəsi və "Qaqaş" sözü yazılmışdı. Kamil müəllim telefonu açdı, "Ata, ata, hardasan?"

– Atan bir az sərxoşdur. Ünvanı de, gətirək evinizə, - deyə Kamil müəllim cavab verdi.

Babaşı Badamlıqda (Badamdarda) deyilən ünvana apardılar. Kamil Səfərli Mehdiabad kəndində, Əhəd Əhmədli isə Duz gölü qəsəbəsində yaşayırdı. Əvvəlcə kamil müəllim evinə çatdı:

– Qardaş, bir az gözləyə bilərsənmi? Cibimdə pul yoxdur, evdən gətirib verim, - deyəndə Əhəd Əhmədli:

– Narahat olma, kamil müəllim, evə çatanda ödəyəcəyəm. Gecən xeyrə qalsın. Qardaş, sür Duz gölü qəsəbəsinə!

*Bakı, fevral, 2024*